***Zaman keçdikcə mədəniyyət başqa yerlərə, o cümlədən Afrikanın şimalına qədər yayılmışdır. Köçəri mədəniyyəti dünya sivilizasiyasının böyük bir hadisəsi olub, onu misilsiz töhfələrlə zənginləşdirərək inkişafında həlledici rol oynamışdır.***

Uzun müddət Qərb dünyagörüşü və elmində köçəri mədəniyyəti sivilizasiyanın aşağı pilləsi kimi göstərilməyə cəhd edilmişdir. Ancaq bu yanlış yanaşma XIX yüzilin sonları - XX yüzilin əvvəllərindən sarsılmağa başladı. Cənubi Rusiyadakı Kurqanların və Orta Asiya şəhərlərinin arxeoloji baxımdan öyrənilməsində ciddi xidməti olan tanınmış rus arxeoloqu və şərqşünası N.İ.Veselovski (1848-1918) yazırdı: "Köçəri yaşayışı Asiyada inkişaf edib. Adətən bəzilərinin düşündüyü kimi bu, sivilizasiyanın aşağı pilləsi olmayıb, artıq bir çoxlarının əmin olduğu kimi tamamilə müstəqil və bərabər hüquqlu bir mədəniyyətdir".

XX əsrdə köçəri mədəniyyətinin öyrənilməsi getdikcə daha böyük diqqət mərkəzinə çevrildi, müxtəlif səpkili əsərlər, elmi araşdırmalar köçəri mədəniyyətinin dünya sivilizasiyasının inkişafındakı müstəqil və mütərəqqi rolunu daha əsaslı və qətiyyətli şəkildə sübut etdi. Bu gün bu istiqamətdə Avrasiyanın köçəri xalqlarının yaratdığı orijinal və yüksək mədəniyyətin lehinə araşdırmalar davam etməkdədir.

Avrasiyanın köçəri xalqlarının mədəniyyətinin mənşəyi məsələsi elm və fikir aləmində ən mübahisəli məsələlərdən birini təşkil etmişdir. Ümumiyyətlə araşdırmaçılar mədəniyyətin mənşəyi ilə bağlı Skif, Hind-Avropa və Altay nəzəriyyəsi kimi üç başlıca görüşü irəli sürmüşlər. Skiflərin Miladdan öncə VII-III əsrlərdə Qara dənizin şimal bölgələrində yaşadıqları məlumdur. Onlar burada m.ö. IV əsrdə dövlət qurmuş, ancaq bu skif dövləti m.ö. III əsrdə qotların zərbəsi altında məhv olmuş, skiflər isə qonşu xalqların tərkibində ərimişlər. Köçəri mədəniyyətinin skif mənşəyini irəli sürənlərə (məsələn, İ.Ziçi) görə, köçəri mədəniyyəti ilk olaraq Qara dənizin şimalında skiflər tərəfindən yaradılmış,





Xaləddin Sofiyev,
kulturologiya elmləri namizədi

# Avrasiya
## köçəri xalqlarının mədəniyyəti

*İnsan cəmiyyətinin inkişaf mərhələlərini ifadə edən dünya mədəniyyətinin, sivilizasiyanın tarixi öyrənilərkən "oturaq mədəniyyəti" və "köçəri mədəniyyəti" anlayışlarından istifadə olunur. Bu anlayışlar fərqli həyat tərzini, həyatın tərkibinin müxtəlifliyini, başqa sözlə, insan qruplarının, cəmiyyətlərin maddi və mənəvi fəaliyyət formalarını, münasibətlərini əks etdirir. Mərkəzi Asiyada, ümumiyyətlə Avrasiyanın çöl bölgəsində maldarlıq (heyvandarlıq) təsərrüfatına əsaslanan köçəri həyat tərzi ilə yaşayan xalqların yüzillər boyu fəaliyyətlərinin məhsulları, yaratdıqları orijinal maddi və mənəvi dəyərlər ümumilikdə "köçəri mədəniyyəti" adını daşıyır.*

buradan Avrasiyaya yayılmış və başqa xalqların mədəniyyətinə bu və ya digər dərəcədə təsir göstərmişdir. Hind-Avropa mənşəyini irəli sürənlər isə köçəri mədəniyyətinin ilk yaradıcılarının Avropalıların əcdadları olduğunu deyirlər. Onlara görə indiki Avropalıların əcdadları - Hind-Avropalıların ulu babaları Miladdan öncə II minillikdə Asiyada Sibirin cənubuna qədər uzanmış bir bölgədə yaşamışlar və köçəri mədəniyyətinin ilk yaradıcıları da onlardır. Altaylı mənşəyinin tərəfdarlarına (məsələn, V.Şmidt) görə bəhs olunan mədəniyyət Altay bölgələrində yaşayan köçəri xalqlar tərəfindən ortaya qoyulub.

Köçəri mədəniyyəti Avrasiya steplərində yaşayan xalqların ortaq məhsuludur. Hələ m.ö. II minilliyin əvvəllərində bu xalqlar arasında ünsiyyətin, əlaqələrin mövcud olduğu məlumdur. Elmi ədəbiyyatda formalaşmış ənənəyə görə skiflər İran dilli xalqlardan ibarət olmuşdur. Bu halda da skif mənşəyi arasında ciddi sərhəd qoymaq bir qədər çətindir. Belə ki, İran dilləri də Hind-Avropa ailəsinə daxildir. Deməli, hər iki halda köçəri mədəniyyətinin ilk yaradıcıları Hind-Avropalıların babaları olurlar. Ancaq yuxarıda da qeyd etdiyimiz kimi, yeni-yeni araşdırmalar, arxeoloji tapıntılar, yeni dəlillər bu görüşlərdə düzəlişlər aparmaq ehtiyacını ortaya qoymaqdadır. Gerçək mənzərə hələlik tam aydın şəkildə yaradılmamışdır. Avrasiya çöllərində Hind-Avropa mənşəli (buraya İran qrupu da daxildir) və Ural-Altay dilli xalqlar yaşayırdılar.

Avrasiya çöllərində yaşayan köçəri xalqlarının həyatında atın əhliləşdirilməsi, atdan istifadə çox böyük rol oynamışdır. Bu da onların mədəniyyətində öz əksini tapmışdır. Ümumiyyətlə atın əhliləşdirilməsi bəşər tarixin ən böyük nailiyyətlərindən hesab olunur.

Avrasiya köçəri xalqlarının mədəniyyətinin ən başlanğıc mərhələlərindən danışarkən Afanasiyev və Andropov arxeoloji mədəniyyətlərini xatırlamamaq olmaz. M.ö. III minillik və II minilliyin əvvəllərinə (2500 - 1700) aid olan bu arxeoloji mədəniyyət Cənubi Sibirdə, Xakasiyada üzə çıxarılmışdır. Bir sıra yaşayış məskənləri və qəbirstanlıqlar aşkar edilib öyrənilmişdir. Afanasiyev mədəniyyətinin daşıyıcıları olan xalqların təsərrüfat həyatı heyvandarlıq (maldarlıq), əkinçilik və ovçuluqdan ibarət olub. M.ö. II minilliyə aid olan Andropov arxeoloji mədəniyyəti Uralın cənub ətraflarını, Qərbi Sibir və Qazaxıstanı əhatə edir. Andropov mədəniyyətini təmsil edənlərin iqtisadiyyatını ilk öncə maldarlıq (heyvandarlıq), sonra isə əkinçilik təşkil edirdi. Ar-

tıq bu dövrdə köçəri mədəniyyəti öz ilk mərhələlərini yaşayırdı.

Avrasiya köçəri mədəniyyətinin formalaşmasına dair dolğun təsəvvür yaranmasında Altayın Pazırıq vadisində aşkar edilən Pazırıq kurqanlar kompleksi çox böyük əhəmiyyət daşıyır. Arxeoloji qazıntılar nəticəsində burada Mərkəzi Asiyanın köçəri xalqlarının mədəniyyətinə çox dəyərli abidələr üzə çıxarılmış və öyrənilmişdir. Dəri, parça, xəz, metal aə ağacdan hazırlanmış məmulatlar, xalçalar buzlaşma nəticəsində yaxşı saxlanılmış və bizim günlərə keyfiyyətli şəkildə gəlib çıxmışdır. Burada insan və at cəsədləri də tapılmışdır. Pazırıq kurqanları tarix baxımından m.ö. V-III əsrləri əhatə edir.

M.ö. VII-III əsrlərdə Qara dənizin şimal bölgələrində yaşayan skiflərin başlıca təsərrüfatları əkinçilik, maldarlıq, ticarət və metal emalından ibarət idi. Arxeoloji araşdırmalar, qazıntılar nəticəsində bu bölgədən skiflərə aid bir çox kurqanlar, şəhər yerləri, saysız-hesabsız metal və s. məmulatlar aşkar edilmişdir. Skiflərə aid olan metal üzərində orijinal ornamentlər geniş yayılmışdı.

Avrasiya köçəri mədəniyyətinin ən səciyyəvi xüsusiyyətlərindən biri "heyvan üslubu" idi. Belə ki, heyvan üslubu bu köçəri xalqların sənətində (təsviri sənətində) çox mühüm yer tutur və geniş yayılmışdı. Heyvan üslubu hər hansı bir heyvanın və ya onun bədən hissələrinin, yaxud bir neçə heyvanların kompozisiyasının stilizə edilmiş təsvirindən ibarət idi. Avrasiya köçərilərinin incəsənətində heyvan üslubu m.ö. I minillikdə inkişaf etsə də, bu dövrdən əvvəl meydana çıxmışdı. Bu üslubun yaradıcıları Avrasiya köçəriləri idi. Müxtəlif məzmunlu heyvan üslublu təsvirlər qiymətli metallar, ağac, dəri və s. məmulat üzərində təsvir edilir. Bu stilizə edilən heyvanlar ilk öncə totem mahiyyətli olsa da, sonralar ornament motivinə çevrilmişdir. Heyvan üslublu təsviri sənət əsərlərinin bədii keyfiyyəti olduqca yüksəkdir.

Avrasiya köçəri mədəniyyətinin Çinə, Asiya və Avropanın digər xalqlarının mədəniyyətinə güclü təsirləri olub. Bu təsir Afrikanın şimalına qədər gedib çıxmışdır. Köçəri mədəniyyətinin təsirlərini, Mərkəzi Asiya köçərilərinin (türklər, monqollar) ilkin sinkretik təsəvvürlərinin izlərini Asiya və Avropanın memarlıq, heykəltəraşlıq, musiqi, təsviri incəsənət əsərlərində, folklor yaradıcılığında, rəssamlıq və ədəbiyyatında aydınca görmək mümkündür.

Köçəri mədəniyyətinin Qədim Şərqə, Ön Asiya xalqlarına, Çin mədəniyyətinə təsiri ən erkən çağlardan özünü göstərmişdir. Bunu Qədim İran, Mesopotamiya, Ön Asiya (xett vs.) xalqlarına məxsus təsviri sənət əsərlərindəki heyvan üslublu motivlər təsdiqləyir. Çinin dini dünyagörüşünə, təqvim anlayışına, hətta məişət mədəniyyətinə Mərkəzi Asiya köçərilərinin təsiri danılmazdır. Çinlilər atdan istifadə etməyi Asiya Hunlarından öyrənmişlər.

Bu təsir orta əsrlərdə də davam etmişdir. İslam sivilizasiyasında, Avropa-xristian sivilizasiyasında Avrasiya köçəri mədəniyyətinin təsirlərini, inikasını araşdırmalar getdikcə daha qətiyyətlə söyləməkdədirlər. Skiflərin Ön Asiyaya hücumları, Hunların Qərbə axınları nəticəsində baş verən xalqların böyük köçü ayrı-ayrı mədəniyyətlərin ünsiyyətində, qarşılıqlı təsirlərində böyük rol oynamışdır. Miladdan sonra II minilliyin I yarısında Mərkəzi Asiyadan Yaxın və Orta Şərqə, Qərbə olan köçlər köçəri mədəniyyətinin bölgələrə yeni bir yayılışı demək idi.

Burada elm-fikir aləmində son zamanlar "köçəri mədəniyyəti" anlayışının birmənalı qarşılanmadığını da qeyd etsək yerində olar. "Köçərilik" bir Qərb anlayışının məhsulu olduğunu (qəbul edilmiş şəkildə) irəli sürərək buna qarşı çıxanlar da var.

Avrasiya Avropa və Asiyanın bir qismini ifadə edən və şimal yarımkürəsində ən böyük materikdir. Avrasiya əhalisinin ən böyük qismi Rusiya, Çin və Hindistanda yaşayır. Onun çöl bölgəsi isə Mərkəzi Asiyadan Qara dənizin şimalına qədər uzanır. "Avrasiya" anlayışı ilk dəfə 1919-cu ildə Mak Kinder tərəfindən irəli sürülmüşdür. Bu gün artıq çox böyük bir geosiyasi anlayışı ifadə edən Avrasiya Afrikanı da əhatə edir.

Qeyd edildiyi kimi, Rusiya Avrasiyanın tərkibindədir. O, nəinki coğrafi-fiziki mənada, həm də tarixi-mədəni və mənəvi mənada Avrasiyanın tərkib hissəsidir. Rusiya mədəniyyətində Avrasiya köçəri mədəniyyətinin dərin izləri və təcəssümləri vardır.



XIX yüzil və XX yüzilin əvvəllərində Rusiyada dünya miqyaslı elm-mədəniyyət xadimləri yetişmişdir. Bu dövrdə Rusiya bəşəriyyətə ədəbiyyat, incəsənət və elm sahəsində nəhəng simalar bəxş etdi. 1917-ci il oktyabr çevrilişindən sonra Rusiyanın ən görkəmli ziyalıları xaricə, xüsusilə Avropa ölkələrinə mühacirətə məcbur oldu. Xaricdə bu ziyalıların iştirakı ilə Rusiyanın gələcək taleyi ilə bağlı bir sıra fikir cərəyanları əmələ gəldi. Onlardan biri Rusiyanın coğrafi şəraitini nəzərə almaqla onun tarixi-mədəni keçmişini dərindən obyektiv şəkildə öyrənməkdən çıxış edərək gələcəyini müəyyənləşdirməyə çalışanları birləşdirirdi. Avrasiyaçılar adını alan və rəsmi olaraq yaranma və fəaliyyətə başlama tarixi 1921-ci ildə Sofiyada "Son nəticə Şərqədir. Öncesezmələr və əməllər. Avrasiyaçılığın təsdiqi" adlı məqalələr məcmuəsi nəşr olunduğu vaxtdan hesablanır. Bu cərəyanın yaradıcıları Rusiyadan qovulmuş (inqilab tərəfindən) görkəmli alim ziyalılar idi. Onlardan üçü - görkəmli filoloq, tarixçi və etnoloq knyaz N.S.Trubetskoy, tarixçi Q. V. Vernadski və coğrafiyaçı və geosiyasətçi P.N.Savitski ilk qurucular hesab olunurlar.

Ən tanınmış avroasiyaçılardan biri olan P.Savitski L.Qumilyova məktubunda yazırdı: "...Qədim köçərilər (türklər və monqollar nəzərdə tutulur - red.) bizim üçün böyük nümunədir: necə döyüşmək və qələbə çalmaq lazımdır (heç olmazsa, bir nəfər yüz nəfərə qarşı), özünü necə qorumaq, məişətininin özünəməxsusluğunu necə saxlamaq olar. Bizim dövrün ümdə vəzifəsi - bütün sahələrdə və hər əlamət üzrə Qərb lovğalığının buynuzunu lap dibindən sındırıb qoparmaqdır.

...Bir də köçərilərin bu böyük irsini biz ruslardan başqa kim mənimsəməlidir, bir şərtlə ki, təkcə çöllüklərlə hərəkət eləməyək, həm də kainatda irəliləyək".

Beləliklə, yuxarıda deyilənlərdən göründüyü kimi avroasiyaçılar Rusiyanın I Pyotrun yönəltdiyi məcrada irəliləməkdə davam etməsinin, yəni Qərb, Avropa standartlarına və dünyagörüşünə yiyələnməsinin tam əleyhdarı idilər. Onlar belə hesab edirdilər ki, Rusiya istər coğrafi mövqeyinə, istərsə də tarixinə görə bənzərsiz, orijinal bir ölkədir. Bu ölkənin tarixi təkcə bir xalq - rus xalqı tərəfindən yaradılmamışdır. Rusiyanın tarixinin, mədəniyyətinin yaranmasında və inkişafında sonradan əsasən Rusiyanın nəzarəti altına keçmiş Böyük çöl deyilən olduqca geniş bir ərazidə, Çinin yuxarı hissəsindən (Şimal-Qərbi Çin) başlayaraq indiki Monqolustanı, Altayı, Sibiri, Uralı, Volqa sahillərini, Xəzər dənizi ətrafını, Don çayı hövzəsini əhatə edən, ta Mərkəzi Avropaya qədər uzanan bir sahədə yaranmış, inkişaf etmiş, müharibələr aparmış və özündən sonra zəngin döyüş ənənələri, böyük siyasi-mədəni irs qoyub getmiş köçəri xalqlar olduqca böyük rol oynamışlar.

Avrasiyaçılar bütün Rusiyanı belə bir faktı qəbul etməyə çağırırdılar ki, müasir rus cəmiyyəti, onun siyasi sistemi və ordusu bütünlüklə avrasiyanın köçəri xalqlarının mədəni-siyasi irsi üzərində qurulmuşdur. Bunu danmaq Rusiyanı fəlakətə sürükləmək deməkdir və nə qədər ki, gec deyil geriyə dönmək, Avropa inkişaf istiqamətindən əl çəkərək, köçəri xalqların tarixini, mədəniyyətini daha dərindən öyrənmək və bunun vacibliyini gənc nəslə anlatmaq lazımdır. Bizim eradan da əvvəl başlayaraq Avrasiya xalqları bir neçə dəfə birləşmişlər: skifləri hunlar, hunları isə iki Böyük Türk Xaqanlıqları əvəz etmişdir.

***Avropa mərkəzçilərin əksinə olaraq Avrasiyaçılar Rusiyanın bir Asiya təməli olduğunu xatırladır və Rusiyada yaşayan bütün millətlərin mənafeyini ifadə edən bir millətçiliyi irəli sürürdülər. Onlar deyirdilər ki, Rusiya öz tarixi-mədəni və mənəvi inkişafına görə Avropadan fərqlənən sırf Avrasiya ölkəsidir, ona görə də onun inkişaf yolu Avropadan fərqlidir, Rusiyanın qurtuluşu bu ölkədə yaşayan başqa xalqlara qarşı ayrı-seçkilik tətbiq edilməməsindədir. Onlar bildirirdilər ki, Rusiya Avropa kapitalizmini, Avropa burjuaziyasını təqlid edərsə məhvə doğru gedəcək. Avrasiyaçılar hətta SSRİ-nin varlığı halında belə Rusiyanı bir sırf Avrasiya dövləti kimi görməyi arzulayırdılar. Qərbçilərdən, Rusiyanın gələcəyini Avropa yolunda görənlərdən fərqli olaraq Avrasiyaçıların görüşləri daha ədalətli, obyektiv və mütərəqqi idi.***